**Respublika**. - 2024.- 24 dekabr. - № 284. - S. 4.

# Müstəqil Azərbaycan yeni intibah mərhələsində

**Əli Hüseynli,**
Milli Məclisin deputatı

**Bu bir həqiqətdir ki, möhkəm siyasi iradə ilə idarə olunan olan dövlətlər beynəlxalq mövqelərini mütəmadi olaraq gücləndirir, dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olurlar. Bu istiqamətdə reallaşdırılan strateji kursun səmərəliliyi müasir qloballaşma şəraitində dövlətlərin gücünü, beynəlxalq münasibətlər sistemində yeri və rolunu müəyyənləşdirən başlıca amil kimi çıxış edir. Respublikaya rəhbərlik etdiyi dövr ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik siyasət sayəsində ölkəmiz tamamilə müstəqil addımlar atan subyekt kimi beynəlxalq aləmdə böyük nüfuz qazanıb.**

Bu kontekstdə Azərbaycanın təcrübəsi mütərəqqi nümunədir. Son illərin təhlili onu deməyə əsas verir ki, Azərbaycan ulu öndər Heydər Əliyevin yaratdığı potensial imkanları lazımınca dəyərləndirib və yeni çağırışlar fonunda daha da vüsətlə inkişaf etdirib. 2003-cü ildən başlayaraq sürətli sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan özünü dünyaya yeni nəsil müstəqil dövlətin ən uğurlu modeli kimi təqdim etməyə nail olmuş, unikal inkişaf strategiyasını reallaşdırmışdır.

Dinamik iqtisadiyyatı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə həm də ədaləti və beynəlxalq hüququ təmin etmiş qalib Azərbaycan, eyni zamanda vətəndaş rifahının təminatı istiqamətində güclü sosial siyasətə malikdir. Bu günlərdə qəbul olunmuş 2025-ci il dövlət büdcəsinin gəlirləri 38,5 milyard manata, xərclərinin isə 41,5 milyard manata yaxın müəyyənləşmişdir ki, bu da müstəqillik dövrünün ən böyük büdcəsidir.

İslahatçı lider kimi sözü ilə əməlinin vəhdətini ictimaiyyətə uğurla təqdim edən Prezident İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı Dövlət proqramları, uğurlu neft-qaz strategiyası, təbii sərvətlərimizin insan amili baxımından optimal şəkildə dəyərləndirilməsi, bu imkanlardan Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi üçün maksimum istifadə olunması son nəticədə xalqın daim artmaqda olan rifahını şərtləndirən amillərdir.

Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərir. Milli qanunvericiliyin daim təkmilləşdirilməsi, yeni çağırışlara uyğunlaşdırılması, dövlət quruculuğu istiqamətində əhəmiyyətli qərarların qəbul edilməsi müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərinə əməl olunması üçün münbit şərait yaradır.

Ölkəmizdə davamlı şəkildə aparılan sistemli dəyişikliklər sadəcə struktur və normativ dəyişikliklərlə bitmir. Burada institusional dəyişikliklər qədər önəmli olan amil yanaşmaların dəyişməsi və yeni münasibətlər sisteminin qurulmasıdır. Yeni siyasi konfiqurasiya ilə bağlı olan islahatlar çərçivəsində ən mühüm və maraqlı mövzulardan biri məhz ölkənin siyasi partiyalar sisteminin təkmilləşdirilməsi ilə əlaqədar olan təşəbbüslərdir. Bu müddət ərzində cəmiyyətin konsolidasiyası üçün mühüm işlər görülmüşdür. Dəqiqliklə düşünülmüş konseptual yanaşmanın məhsulu olan bu islahatlar demək olar ki, bütün istiqamətlərdə - qanunverici, institusional və hətta ideoloji müstəvilərdə aparılır. Prezident, Yeni Azərbaycan Partiyasının (YAP) Sədri cənab İlham Əliyevin müəllifliyi və bilavasitə rəhbərliyi ilə ölkədə açıq siyasi dialoq mühitinin və sağlam siyasi rəqabətin formalaşdırılmasına xidmət edən yeni siyasi konfiqurasiyanın yaradılması, ilk növbədə, məhz ölkədaxili islahatlara xidmət edir. Məhz bunun nəticəsində ölkədə taleyüklü məqamlarda milli maraqlar naminə siyasi həmrəyliyə nail olunmuşdur. Bu prosesin önündə gedən YAP hər zaman olduğu kimi, öz liderinin tövsiyələrinə uyğun olaraq siyasi mübarizənin sivil nümunələrini nümayiş etdirir.

Demokratik islahatlar nəticəsində cəmiyyətin siyasi səviyyəsi xeyli yüksəlib, ölkədə keçirilən bütün seçkilər demokratiya və söz azadlığının markeri, həm də reytinq göstəricisi kimi xalqın mövcud iqtidara yüksək ifadəsi, sarsılmaz inamın göstəricisidir.

Getdikcə dünya ölkələri bu və digər coğrafiyalarda baş verən münaqişələrə cəlb olunur və ya onun təsirlərinə məruz qalır. Bu baxımdan, hazırkı reallıqlar fonunda yüksək təhlükəsizlik mühitinin təmin olunması həqiqətən olduqca böyük iradə, təcrübə və strateji baxış tələb edir. Bu gün Azərbaycandakı təhlükəsizlik mühiti ən yüksək tələblərə cavab verir və bütövlükdə regionda vəziyyətə təsir göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi ilə regiondakı proseslər xüsusilə son dövrlərdə həm də

regional təhlükəsizlik sisteminin qurulması istiqamətində inkişaf etməkdədir. Stabil inkişaf ilə inamla yoluna davam edən ölkəmizin sabitlik adası kimi müsbət reputasiyası da məhz respublika rəhbərliyinin bu məsələyə xüsusi diqqətindən qaynaqlanır. Təsadüfi deyil ki, "Global Terrorism Index 2024" (GTI) hesabatı ilə dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralanmasında Azərbaycanın "0" indekslə sonuncu - 89-cu yerdə Danimarka, Finlandiya, Qətər kimi ölkələrlə birgə qərarlaşması bir daha sübut edir ki, ölkəmiz dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biridir.

Ötən 21 il ərzində Azərbaycanın ən böyük uğuru, heç şübhəsiz, xalqın sonsuz etimadına güvənən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin bənzərsiz sərkərdəliyi ilə 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusunun möhtəşəm tarixi Qələbəyə imza atmasıdır. Tarixi dəyişən bu Zəfər ölkəmizin son 200 illik dövlətçilik tarixində əldə etdiyi ən böyük nailiyyət hesab olunur. Belə ki, əfsanələri reallığa çevirən Ali Baş Komandan İlham Əliyev "Qarabağ Azərbaycandır!" reallığını rəşadətli Ordumuzun gücü ilə bütün dünyaya sübut etdi, beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Dövlət başçımız bu əlamətdar tarixi hadisəyə münasibətini açıqlayarkən demişdir: "Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır".

Müasir standartlar səviyyəsində modernləşmiş və dünyanın güclü orduları sırasında yer alan Azərbaycanın Silahlı Qüvvələri bu gün daha qüvvətli, daha çevik bir gücdür. Prezident İlham Əliyev Ali Baş Komandan kimi bu sahəyə xüsusi diqqət ayıraraq əsas prioritetlər sırasında, ilk növbədə, ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması hərbi sənaye kompleksinin inkişafını göstərir. Bu da səbəbsiz deyil: dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bütün bunları nəzərə alaraq, Ordumuzun daha da gücləndirilməsi vəzifəsi bir nömrəli vəzifə olaraq qalır. Qürurvericidir ki, növbəti il üzrə müdafiə və milli təhlükəsizlik xərclərinin dövlət büdcəsindəki ümumi məbləği 8,5 milyard manata çatdırılmışdır.

Şaxələndirilmiş və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal təhlükəsizliyə mühüm töhfələr verən, dünya siyasətində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bu gün bütövlükdə Avrasiya məkanında bir çox beynəlxalq təşkilatlarin işində uğurlu və məhsuldar fəaliyyəti ilə seçilir. Xarici siyasətini mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq əsasında quran Azərbaycan bununla həm beynəlxalq nüfuzunu, həm də təhlükəsizliyini məharətlə qoruyub saxlamaqdadır. İkitərəfli münasibətlərdə, məsələn, Türkiyə və Rusiya kimi region liderləri ilə müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında bəyannamələrin imzalanması son illər dünyada formalaşmış mürəkkəb geosiyasi şəraitdə reallaşdırılan güclü diplomatik gedişlərdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "Ria Novosti" agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində bununla bağlı düşüncələrini bölüşmüşdür: "Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir".

Azərbaycan Respublikası beynəlxalq platformalarda yüksək nüfuza malik aktor rolunu məharətlə oynayır. BMT, Avropa İttifaqı, NATO, TDT, İƏT kimi dünya siyasətində söz sahibi olan təşkilatlarda respublikamızla əməkdaşlıq strateji prioritet kimi müəyyənləşdirilir. Ölkəmiz 2011-ci ildə ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının (2012-2013) qeyri-daimi üzvü seçilmişdir.

Azərbaycan 2015-ci ildə Birinci Avropa, 2017-ci ildə isə İslam Həmrəylik Oyunlarını yüksək səviyyədə keçirmişdir. "Formula-1" yarışlarının Bakıda təşkil olunması artıq bir ənənəyə çevrilməklə yanaşı, Azərbaycanın dünyaya tanıdılmasında mühüm vasitədir.

Xüsusilə ərazi bütövlüyümüz və Qarabağ da daxil olmaqla, ölkə ərazisində suverenliyimiz tam şəkildə bərpa edildikdən sonra bütün beynəlxalq təşkilatlar, çox sayda nüfuzlu dövlətlər qalib ölkəmizə ciddi maraq göstərir, tərəfdaşlıq etmək istəklərini ortaya qoyurlar. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında çox mühüm rol oynayır. Hazırda dünyada və yaxın regionumuzda baş verən mürəkkəb geosiyasi proseslər fonunda respublikamızın Avropa üçün önəmi xeyli dərəcədə artıb.

Azərbaycan bir sıra Avropa İttifaqı ölkələri üçün etibarlı tərəfdaşdır. Çünki "Bizim Sözümüz imzamız qədər keçərlidir", - söyləyən cənab İlham Əliyevin fəaliyyəti sözlə əməlin vəhdət nümunələri ilə zəngindir və bunu hər kəs görür və dəyərləndirir. Məhz onun yorulmaz və səmərəli fəaliyyəti sayəsində bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu ifadə edirlər. Bölgənin lider dövləti olan, müasir

dünyada etibarlı tərəfdaş kimi tanınan respublikamız həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən Azərbaycan da öz coğrafi mövqeyinin verdiyi üstünlüklərdən faydalanaraq ölkələrin hər biri üçün məqbul olacaq təkliflər verir. Həmçinin regionun və özünün karbohidrogen məhsullarının Avropa bazarına çıxarılması imkanlarını genişləndirməyə çalışır.

Azərbaycan bu gün Qərb - Şərq, Şimal - Cənub vektorları üzərində yerləşən nəqliyyat habına çevrilib. Bu istiqamətlərdə həyata keçirilən heç bir transmilli layihə Azərbaycanın iştirakı olmadan reallaşa bilmir. Cənub Qaz Dəhlizi isə qitənin qaz təchizatının təhlükəsizliyi baxımından çox vacib layihədir. Digər tərəfdən isə Azərbaycan alternativ enerji ixracatçısı qismində çıxış edir. Ötən ildən etibarən bu istiqamətdə vacib işlər görülüb, bir sıra Avropa dövlətləri ilə müvafiq sazişlər imzalanıb. Bu prosesdə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialından da səmərəli istifadə olunacaq. Bir sözlə, bütün dünya Azərbaycanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirir.

Regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Azərbaycan 2011-ci ildən etibarən BMT-dən sonra sonra ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının üzvüdür. Bu qurum dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platformaya çevrilməklə beynəlxalq aləmdə öz prinsiplərinə bağlılıq nümayiş etdirən nüfuzlu təsisatdır. 2019-2023-cü illər üzrə Hərəkata sədrliyin Azərbaycana həvalə edilməsi üzv dövlətlərin ölkəmizə olan etimadının və onun mütərəqqi təşəbbüslərinə ayrılan yüksək diqqətin təzahürüdür. Azərbaycan bu dövrdə COVID-19 pandemiyası ilə mübarizədə yaranmış təhlükələrə qarşı vaxtında və təsirli tədbirlər həyata keçirmiş, bu istiqamətdə qlobal səylərin səfərbər edilməsi üçün irəli sürdüyü bir sıra dəyərli təşəbbüslərə müəlliflik etmişdir.

Yeri gəlmişkən, Azərbaycan azsaylı ölkələrdəndir ki, Fransanın neokolonializm siyasətinə qarşı mübarizəni prioritet elan edib, bununla bağlı beynəlxalq tədbirlərə ev sahibliyi edir, hətta Qoşulmama Hərəkatının Bakı Təşəbbüs Qrupu (BTQ) da yaradılıb. Neokolonializmə qarşı Azərbaycan paytaxtından start götürən təşəbbüs artıq beynəlxalq kampaniyaya çevrilərək qlobal əhəmiyyət kəsb edir. Azərbaycanın bu təşəbbüsünə getdikcə daha çox ölkə qoşulur və bu, bəşəriyyətin inkişafının qarşısını alan maneələrlə mübarizənin istiqamətlərindən biri kimi qəbul edilir. Müstəmləkəçi dövlət statusunu qoruyub saxlayan ölkələr sırasında Fransa və digər Avropa dövlətlərinin kiçik ada dövlətlərinin yerli xalqlarına qarşı qeyri-humanist münasibəti məhz bu çərçivədə ifşa olunmaqdadır. Azərbaycan Prezidenti dəfələrlə siyasi cəsarət nümunəsi olaraq bu istiqamətdə ölkəmizin kimsədən çəkinmədiyini və haqlı davasını bütün platformalarda davam etdirəcəyini vurğulayıb.

Ötən ay BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük ehtiramın və dəstəyin göstəricisidir. Məntiqlidir ki, bundan əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlara uğurla sədrlik etməsi bu qərarın qəbul edilməsində əhəmiyyətli rol oynamışdır. Digər baxımdan bu, həm də Azərbaycan rəhbərliyinin qlobal miqyasda güclü diplomatiyasının əlaməti və çoxtərəfli danışıqlar zamanı etibarlı tərəfdaş nüfuzunun təsdiqidir. COP29-da dünyanın hər bir nöqtəsini təmsil edən 76 mindən yuxarı qonağın iştirakı tədbirin misli görünməmiş qlobal miqyasını təsəvvür etməyə imkan verir. Əlamətdar hadisədir ki, COP29 tədbirində əvvəlki mərhələlərdə reallaşmayan bir sıra nailiyyətlərə imza atılıb, o cümlədən Paris Sazişinin 6-cı Maddəsi müvəffəqiyyətlə tam şəkildə razılaşdırılıb. İştirakçıların böyük əksəriyyəti bu nəticənin əldə olunmasında Azərbaycanın səylərini yüksək qiymətləndirmişdir. Ona görə də Prezident İlham Əliyev COP29-u "iqlim diplomatiyasının dönüş nöqtəsi" adlandırmışdır. Bu qlobal sammit həm də siyasi texnoloqlar tərəıfindən dünyada sülhə və təhlükəsizliyə mühüm töhfə kimi dəyərləndirilir.

Azərbaycan durmadan nüfuz coğrafiyasını genişləndirməkdə davam edir. Dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikasının yekdilliklə quruma üzv seçilməsi beynəlxalq aləmə inteqrasiyası prosesində ölkəmizin yeni diplomatik uğurudur.

Ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bölgədə yaranmış yeni geosiyasi reallıqlar baxımından Azərbaycanın həyatında daha vacib və mühüm mərhələ başlayıb. Hazırda qarşıda dayanan əsas hədəflər Qarabağın dirçəldilməsi, Böyük Qayıdış ideyasının tezliklə reallaşdırılması və sülh prosesi ilə paralel olaraq Qərbi azərbaycanlıların doğma yurd-yuvalarına dönməsi istiqamətində ardıcıl addımların atılmasından ibarətdir.

Beynəlxalq siyasi arenada yeni dünya nizamının formalaşmasında fəal iştirak edən güclü geosiyasi oyunçu kimi qəbul edilən Prezident İlham Əliyevin mütərəqqi təşəbbüsləri və praqmatik siyasi addımları

bu istiqamətdə uğurlu nəticələrin əldə olunacağına ümidləri artırır. Bu baxımdan, Cənubi Qafqazın lideri olan Azərbaycanın bundan sonra da regionun sülh və əmin-amanlıq məkanına çevrilməsinə və tərəqqisinə daha mühüm töhfələr verəcəyi şübhəsizdir.

Beləliklə, dövlət müstəqilliyimizi fədakarlıqla qoruyan və Azərbaycanı tərəqqi yoluna çıxarmaqla xilaskar lider obrazı ilə tarixdə silinməz izlər qoymuş ulu öndər Heydər Əliyevdən siyasi estafeti böyük məsuliyyət hissi ilə qəbul edən və yeni çağırışlara uyğun davam etdirən Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin etməklə dövlətçilik tariximizin ən uğurlu səhifələrini yazmağa nail olmuşdur. Məhz bu uğurlar üzərindən geniş xalq kütləsinin inam və etimadına güvənən dövlət başçımızın doğma Vətəninin azad və firavan bir ölkəyə çevrilməsi, vətəndaşların rifahı və xoşbəxt gələcəyi, bütün dünya azərbaycanlılarının şərəfli, ləyaqətli və qürurlu həyat tərzinin bərqərar olması naminə göstərdiyi misilsiz xidmətlərin həcmi ölçüyəgəlməzdir.